# MƏDƏNİYYƏT KONTEKSTİNDƏ QLOBALLAŞMA PROSESİ

***Dünyəvi prosesin təzahürünə çevrilmiş "qloballaşma" bu günkü elmi leksikonun işlək anlayışına çevrilmişdir. Cəmiyyətin bütün sahələrinə nüfuz edən bu prosesin əks-sədası mədəniyyətdə də özünü doğrultmağa çalışır. Çünki mədəniyyət hər bir cəmiyyətin inkişaf durumunu göstərən amildir. Mədəniyyət kontekstində qloballaşma prosesinin vəziyyətini izləməzdən öncə, ümumiyyətlə, bunun necə bir proses olduğuna nəzər yetirək.***

Etimoloji cəhətdən təhlil sübut edir ki, bu anlayış "qlobus" - yəni latınca "yer kürəsi" mənasını verir. Bu isə həmin proseslərin ümumbəşəri, yəni dünyəvi səciyyəsi ilə izah edilir. Başqa sözlə desək, dünyada baş verən bütün ictimai hadisələrin, fəaliyyətin beynəlmiləlləşməsini ifadə edir. Lakin bu beynəlmiləlləşmənin fövqündə ədalətlilik, humanizm prinsipləri, insanların maddi və mənəvi rifahı amilləri liderlik təşkil edir.

Bu anlayış haqqında son onilliklərdə elmi-nəzəri mübahisə, diskussiyalar aparılır, müxtəlif məzmunlu perspektivlər ortalığa atılır. Məsələn, belə perspektivlərdən birinin məzmunu təxminən belə səslənir ki, qloballaşma hər bir tərəfdən istənilən müstəvidə məkan və məsafələrin sıxılmasını şərtləndirir, xalqları, mədəniyyətləri bir-birinə yaxınlaşdırır ki, bunun da ən mənfi nəticəsi yekcins simasızlığın formalaşmasıdır.

Qloballaşma prosesinin perspektivini sosial təcrübələrin mütərəqqi şəkildə genişlənməsi amili ilə izah edənlər isə, onun müsbət cəhətlərini ortalığa qoymaqla təhlil edirlər.

Göründüyü kimi, bu anlayış ətrafındakı qeyri-müəyyənlik tədqiqatçılar tərəfindən onun müxtəlif şəkildə təhlili ilə bağlıdır. "Qloballaşma" prosesinin zaman ölçüsündə təhlili də tədqiqatçılar tərəfindən müxtəlif şəkildə cavablandırılır: bəziləri bunun çoxdan baş verən bir proses, bəziləri lap yeni bir hadisə olduğu, digərləri isə, qloballaşmanın gələcəyə aid olduğu iddiası ilə çıxış edirlər. Lakin bütün bunları nəzərə almayan belə bir qəti fikir də var ki, qloballaşma obyektiv bir proses olub, heç bir fərd və ya sosial qrupun ifadə və arzusundan çıxış etmir. Bu prosesin obyektivliyi ondadır ki, onun nə qarşısını almaq, nə də sürətləndirmək mümkündür. Yəni qloballaşma öz axarında baş verən bir prosesdir. Sadəcə olaraq bəşər övladları bu prosesin ən humanist tərəf və istiqamətlərinin məkanca yayılmasını təmin etməlidirlər.

Elmi ədəbiyyatda tez-tez rast gəlinən dəlil və sübutsuz iddialardan biri ondan ibarətdir ki, guya qloballaşma Amerika Birləşmiş Ştatlarının əməlinin nəticəsidir. Primitiv antiamerikan nəzəriyyəçiləri belə zənn edirlər ki, bu fövqəldövlətin rəhbərləri sivilizasiyanı Amerika nümunəsinə doğru inifikasiya edirlər. Onların fikrincə bəşəriyyətin gələcəyi "müstəmləkəçiliyin bərpası"na doğru addımlayır.

Tarixdə Avropa ölkələrinin dünya liderliyini əlində saxladığını sübut edən bir neçə nümunə mövcuddur: məsələn, XVI-XVIII əsrlərin əvvəllərində niderlandlıların hegemonluğu, XVIII-XIX əsrdə Britaniyanın liderliyi faktları tarixə məlumdur. Bu imperiyalardan nə qaldı? Lokal sivilizasiyalar inifikasiya oldumu? Bu suallara təsdiqedici cavab, yəqin ki, olmaz. Əgər belədirsə, müasir inkişafın, sivilizasiyanın tarixdən məlum ssenari ilə idarə olunacağı haqqında fikri necə söyləmək olar?

Qloballaşmanı reallaşdıran çoxsaylı proseslər - nəhəng texnoloji proses, düyna iqtisadiyyatının intensiv artımı, informasiya inqilabı, nəqliyyat vasitələrinin sürətli inkişafı və s. müasir dünyanın əsas aparıcı motivlərindəndir. Qloballaşma prosesinin sürətlənməsinə təkan verən bir çox səbəblər içərisində planetimizin ekoloji vəziyyətinin pisləşməsi, insanın dünyada nüfuzuna xələl gətirən, demoqrafik planda baş verən dəyişikliklər, ayrı-ayrı ölkələr, xalqlar və sosial qrupların xarakterindəki yeniləşmələri qeyd etməliyik. Bütün bu kimi arqumentlər ötən əsrin 70-80-ci illərindən başlayaraq tədqiqatçıları qloballaşma prosesini bir sosial hadisə kimi işıqlandırmağa cəlb etdi. Bu hadisənin ifadə forması nədir, fərdi, özünəməxsus, oxşarsız olanın tipik, ştamp, kütləviliklə əvəz olunmasıdır. "Avrostandart" ("Yevrostandart"), Qərb modeli, "amerikanlaşma" müasir dövrümüzdə planetin, demək olar ki, bütün sahələrinə nüfuz etməkdədir. Bu hadisəyə münasibət eyni deyil, bəzi tədqiqat-

çılar bunun ya müsbət, ya da mənfi tərəfdən maksimal traktovkasını verirlər. Bütün bunlarla yanaşı, bizə elə gəlir ki, qarşısıalınmaz olan bu prosesin iki tərəfi mövcuddur: bir tərəfdən o birləşdirir, ümumi dərketməyə sövq edir, əməkdaşlığa cəlb edir, digər tərəfdən, özünəməxsusluğa, orijinal və spesifikliyə mənfi təsir göstərərək onu inifikasyia edir. Belə olduğu halda qloballaşmanın hər iki tərəfi mədəniyyət kontekstində necə dərk olunur, onun təsiri nədə özünü göstərir?

O.Şpenqler və digərlərinin "mədəniyyət - sivilizasiyadır" kimi məşhur ifadəsinə istinad etsək, onda qloballaşmanın öz məzmunu ilə sivilizasiya prosesi olduğu nəticəsini söyləmək olar. Bir çox tədqiqatçılar qloballaşmanın fikri obrazını tarixin lap bizdən çox-çox uzaq çağlarında, hələ mədəniyyətlərin "şərq" və "qərb" kimi iki hissəyə bölünmədiyi dövrlərdə olduğunu iddia etməyə çalışırlar.

Qloballaşma dünyəvi, planetar bir hadisədir. Lakin dünyanın universallaşması ideyası da yeni deyildir. Görkəmli ingilis kulturoloqu Arnold Toynbi ayrı-ayrı sivilizasiyaların (müəllif on iki sivilizasiyanın adını qeyd edir) təşəkkülü, inkişafı, itib getməsi, süquta uğramasının səbəblərini dərk etdiyi şəkildə təhlil edərək, eyni zamanda müasir cəmiyyətdə bir çox sivilizasiyaların paralel şəkildə mövcud olması zərurətinə diqqət yetirir. Bu halda düşüncələrini yekunlaşdıran A.Toynbi diqqəti o nəticəyə yönəldir ki, harmonik sivilizasiyanın yaranması vaxtı yaxınlaşmaqdadır. Lakin bu sivilizasiya digər sivilizasiyaların məhv edilməsi, onların töküntüləri, xarabalıqları üzərində qurulmalıdır. Bu sivilizasiyanın xüsusiyyətləri görkəmli alim tərəfindən utopik tərzdə təsvir olunur. Çox güman ki, Toynbi universallaşmanın keyfiyyətcə yeni mərhələsini, məhz bizim bu gün adlandırdığımız qloballaşmada təsəvvür edirdi. Bəşər tarixində insanların vahid, mehriban kainat evində birgə yaşayışının mümkünlüyü haqqında çoxlu sayda kəşflər mövcuddur. Təkcə elə sosial utopistlərin yer üzərində insanların cənnətdə yaşaması haqqındakı nəzəriyyələri həmin ideyanın ən bariz kəşflərindən idi. Sen-Simon, Furye, Ouen və digərlərinin insanların birgə yaşamasının mümkünlüyü haqqındakı məşhur utopist nəzəriyyələrinin məzmunu hamımıza bəllidir. Mədəniyyətdə qloballaşmanın təsirinin ilkin cığırı, məhz insanların birgə yaşayışından başlayır. Tanınmış rus sosioloqu Q.Q.Diliqenskinin "İnsani ölçü meyarlarında qloballaşma" ("Глобализация в человеческом измерении") adlı məruzəsində qeyd olunur ki, mədəniyyət, mentallıq və şəxsiyyətin inkişafında qloballaşma prosesinin ümumi cəhəti təzahür olunur. Bu cəhət əkstərəfli tendensiyaların birləşməsinin yeni üsulunda özünü göstərir. Bu eyni vaxtda həm yekcinsliyə, həm də müxtəlifliyin güclənməsinə təsir göstərir. Bu zaman müxtəlifliyin güclənməsi tendensiyası bütövün, tamın parçalanması deyil, əksinə, müxtəlif hissələrin qlobal tamın əlaqələnməsi üçün mexanizm və prinsiplərin hazırlanmasına təsir göstərir. (Bax:Дилигенский Г.Г. Глобализация в человеческом измерении//Материалы постоянного действующего междисциплинарного семинара Клуба ученых "Глобальный мир" Выпь (18). M., 2002, c.25-26). Qloballaşma təkcə iqtisadi və siyasi fəaliyyətin yeni tiplərinin yayılması, texnologiya, həyat tərzi, informasiya dəyişikliklərinin deyil, həm də müxtəlif mədəni modellərin yayılmasını təmin edir.

Mədəniyyət kontekstində qloballaşmaya münasibətin iki variantı mövcuddur: optimist və pessimist. Bunlardan hər biri sanballı elmi əsasına görə seçilir. Mədəniyyət kontekstində qloballaşmaya optimist münasibəti olan kulturuloqlardan biri rus alimlərinin nümayəndəsi olan A.A.Hüseynovdur. Onun fikirlərində mühüm yer tutan təriflərdən birində belə deyilir: "İfrat formada həyata keçən qloballaşma belə, əhəmiyyətli bir prosesdir. Bu bəşəriyyətin ilhamverici perspektividir. Mənşə etibarilə Qərbin ideyası olan qlobalçılıq obyektivdir və mahiyyətcə ümumbəşəri, dünyəvidir" (Bax: Диалог культур в глобальном мире. Обзор дискуссий во Франкфурте-на Майне и в Москве // Труды Фонда Горбачева, т.7.M., 2001, с.431).

Görkəmli sosioloq A.B.Veberin fikri isə tamamilə əksinədir. O yazır: "Söhbət obyektiv prosesdən gedir. Elə bir prosesdən ki, onun müxtəlif tərəflərini fərqləndirmək vacibdir… Qloballaşma dünyəvi inkişafın qeyri-möhkəmliyinin güclənməsi amilidir… Qloballaşma yeni avtoritarizmin fenomenidir. Onun təkan verdiyi proseslər sosial-siyasi gərginliyin və "dünya kəndi"ndə ziddiyyətlərin katalizatoru rolunu oynayır". Mədəniyyət kontekstində qloballaşmanın mümkün olan nəticələrini təhlil edən bir çox alimlər, o cümlədən A.B.Veber mədəniyyətlərin birləşməsinin



ikili qaydada reallaşmasını sübut edirlər. Ya ənənəvilik və fundamentalizm əsasında milli-mədəni birləşmə, ya da bir mədəniyyətin digərini sıxışdırıb aradan çıxarması. Sonuncu variant daha çox "mədəni" ekspansiyanı nəzərdə tutur ki, bu da hegemonluğa can atan Qərb mədəniyyətində təzahür tapır. Tədqiqatçıların bir çoxu qərbi, Amerika mədəniyyətinin "zəif" mədəniyyətlər üzərində qələbə çalmaq istəyini qabardırlar.

Bütün bunlarla yanaşı, iqtisadi və texniki gücə malik inkişaf etmiş ölkələrin qərbləşmə tendensiyasında qərb (Amerika) mədəniyyətinin yalnız aqressivliyini görmək düzgün olmazdı. Qərb mədəniyyəti, hətta ekspansiyasız da özünü digər mədəniyyətlərdə çox rahat hiss edir. Məsələ ondadır ki, digər cəmiyyətlərə, mədəniyyətlərə məxsus olan insanların dünyagörüşlərinə qlobal irəliləyişlər nəticəsində yaranan tələbatların ödənilməsində qərb nümunələri daha sadə və səmərəli hesab olunur. Bu daha çox təqlidə bənzəyən qarşılıqlı əlaqə prosesini xatırladır. Bu nə düşünülmüş siyasətin, nə də Qərb mədəniyyətinin ekspansiyasının nəticəsidir. Bu hadisəni zəruri hadisə kimi qiymətləndirmək daha düzgün olardı. Özü də elə bir hadisədir ki, mədəniyyət səviyyəsində ziddiyyətlərin meydana gəlməsinə təsir göstərir. Bu ziddiyyətlər ayrı-ayrı fərdlərin mənəviyyatı, milli mədəniyyət, təhsil, həyat tərzində qabarıq şəkildə təzahür edir.

Tədqiqatlar göstərir ki, bu qəbildən olan ziddiyyətlərin həllinə mədəni sintezdən bəhrələnmək əhəmiyyətli təsir göstərir. Bu barədə Q.Q.Diliqenski qeyd edir ki, ənənəvi dəyərlər şəxsiyyət üçün ontoloji əhəmiyyət kəsb etdiyi halda (yəni onun həyat fəlsəfəsinin müəyyənləşməsi, özünə və digərlərinə münasibətin formalaşması üçün), bəhrələnmə nəticəsində qazanılan norma və standartlar müəyyən sinfi münasibət və situasiyalar çərçivəsində (məsələn, təsərrüfat fəaliyyəti, maddi istehlak, təhsil, əyləncə sahəsində) praqmatik davranışı formalaşdırır.

Tədqiqatçılar Qərbin ənənəvi mədəniyyətlərə təsirinin bir sıra xüsusiyyətlərini də üzə çıxarır. Cənub və Şərq ölkələrində istehlakın qərbi inport formaları heç də yerli mədəniyyətlərin süqutunda maraqlı deyil. Qərbləşmənin zahiri formaları ənənəvi mədəniyyətin daha davamlı əsasının yeni ifadəsi kimi çıxış edir.

Mədəniyyət fenomenində dar, dövlətlərarası sərhəd, "kiçik" və ya "böyük" mədəniyyətlərə bölgü yoxdur. Yalnız vahid mədəni bir məkan mövcuddur. Normativ hadisə kimi mədəniyyət, həm də cəmiyyətin sosial nizamlayıcı roluna malikdir. Mədəniyyətə qovuşan hər bir fərd mədəni norma, dəyər, ənənələrə yiyələnir, sosial-mədəni mövcudluğun "qaydaları" ilə tanış olur.

Mədəniyyətlərin qarşılıqlı əlaqəsi prosesi dünyanın bütün regionlarını əhatə edərək, mədəni əlaqələrin davamçılıq və dərinlik əmsalı get-gedə genişlənərək yeni bir, "üçüncü" mədəniyyətin formalaşmasına təkan verir. Üçüncü mədəniyyət özündə müxtəlif cəhətləri birləşdirir. Mədəniyyətlərarası kommunikasiya xalqlara bir-birini daha yaxşı tanımağa, milli mədəniyyətin özünəməxsusluğunu anlamağa kömək edir. Göründüyü kimi, qloballaşma prosesində milli mədəniyyətlər etnomədəni rəngarəngliyə, inteqrasiyaya kömək edən vahid qlobal mədəniyyətin təşəkkülündə iştirak edir. Bu prosesdə, həm də mədəniyyətlər öz unikallığını da sübut etdirir.

İnternet texnologiyasının köməkliyi ilə dünya mədəni irsinə yol açılır ki, bu da qloballaşmanın məhsulu kimi qiymətləndirilir. Kütləvi informasiya sahəsində müxtəlif ixtisas və peşələr üzə çıxır. Mədəni təcrübə və qarşılıqlı əlaqələr nəticəsində məkan-məsafə, zaman, sosial və digər baryerlər aradan qalxır, vahid informasiya məkanı formalaşır. Fəaliyyətin keyfiyyətcə yeni sahəsi - elektron mədəniyyəti meydana gəlir. Bu mədəniyyət bədii yaradıcılığın yeni sinkretik formalarının əmələ gəlməsi nəticəsində mövcud mədəni irsin rəqəmləşdirilməsindən ibarətdir.

XX əsrin təcrübəsi bir daha sübut etdi ki, dünya mədəni siyasətinin qurulması prinsipləri dil fərqlərinin, milli mədəni identikliyin, lokal mədəni məkanın özünəməxsusluğunun qorunması, milli mədəni irsə sərbəst yolun təminatından çıxış etməlidir.

Müasir cəmiyyətdə mədəni özünəməxsusluğun qorunması sivilizasiyanın ən böyük nailiyyətlərindən hesab edilir. Əvvəllər bu cəhətə diqqət yetirilmədiyindən bir millət digər millətin mədəniyyətini "həzm edir", ondan heç bir əsər-əlamət saxlamırdı. Dünya mədəniyyəti tarixində adları yalnız vərəqlərdə mövcud bu cür mədəniyyətlərin sayı çoxdur. Latın Amerikası, Afrikanın avropalılar tərəfindən müstəmləkəçiliyi bu nümunələrdəndir.

Mədəni siyasət sahəsində tez-tez səslənən məsələlərdən biri

millətin mədəni irsini necə qoruyub saxlamaqla bağlıdır. Bu məsələ qloballaşmanın ən böyük problemlərindən biri olduğu üçün beynəlxalq təşkilatların bu sahədəki fəaliyyəti dünyəvi əhəmiyyət kəsb edir. Birləşmiş Millətlər Təşkilatının bəşəriyyətin mədəni genefondunun mühafizəsi üzrə müxtəlif istiqamətli qurumlarının əsas məqsədi, məhz bu mədəni irsin gələcəyə ötürülməsi ilə yanaşı, ayrı-ayrı milli, etnik mədəniyyətlərin vahid qlobal dünya mədəniyyəti ətrafında diffuziyasını təşkil etməkdir. Bu sahədə, xüsusilə YUNESKO-nun, onun ayrı-ayrı təşkilatlarının geniş planlı fəaliyyəti məqsədəuyğun səciyyəyə malikdir.

Demokratik cəmiyyət quruculuğu prosesini yaşayan Azərbaycan Respublikasında mədəniyyətin qloballaşmaya inteqrasiyasının təzahürləri əyani şəkildə görünməkdədir. YUNESKO-nun bütün beynəlxalq təşkilatlarında Azərbaycan şöbələrinin fəaliyyəti, mədəni irsin qorunması xəttilə təşkil olunan ümumdünya tədbirlərində yaxından iştirakı, təhsil sahəsindəki ciddi dəyişikliklər və Avropa standartlarına uyğunlaşma - bütün bunlar müasir Azərbaycan mədəniyyətinin qloballaşma prosesinə nüfuz etməsinin reallıqlarıdır.

Son on ildə Azərbaycan təhsilində gedən islahatlar müasir Azərbaycan mədəniyyətinin bəşəri dəyişikliklərə cəlb olunmasının ən canlı nümunəsidir. Mədəniyyətin ayrılmaz tərkib hissəsi olan təhsilin qloballaşması müasir Azərbaycan mədəniyyətinin milli dəyərlər zəminində beynəlmiləlləşməsidir. Üç mərhələli səviyyədə həyata keçirilən bu islahatlar dünya təhsil sisteminə inteqrasiyasında ən qlobal hadisədir. Müasir Azərbaycan təhsil sisteminin bütün səviyyələrində bəşəri prinsiplərin - humanitarlaşma, differensiallaşdırma, humanistləşdirmənin geniş miqyasda tətbiqi həm təhsilin məzmunu, həm də təhsil müəssisələrinin idarə olunmasında qlobal problemlər kimi həll olunmaqdadır. Sovet təhsil sisteminin ən neqativ cəhəti hesab olunan kütləvi şəkildə attestat almaq, "faiz xəstəliyi"nin tamamilə əksinə olan "təhsil alan" və "təhsil verən"ə yalnız keyfiyyət əmsalı ilə yanaşma bu qlobal hadisənin - islahatların əsas mahiyyətini təşkil edir. Yeni - XXI əsrin "Təhsil əsri" kimi tarixə qədəm qoyduğu bir vaxtda Azərbaycandakı bu islahatların gedişi cəmiyyət təkmilləşdirilməsinin stimuludur. Bunu təkcə "yalnız təhsili güclü olan cəmiyyətin inkişafı mümkündür", - ifadəsilə də izah etmək kifayətdir.

Azərbaycan mədəniyyətində qloballaşmanın təzahürləri sosial-mədəni münasibətlər sistemində də öz əksini tapmaqdadır. Dünya mədəniyyətində özünə yer tutmuş Gender problemlərinin Azərbaycana inteqrasiyası qloballaşmanın miqyasının vüsətindən xəbər verir. Gender mürəkkəb sosio-mədəni prosesi əks etdirir ki, onun hüdudları çərçivəsində kişi və qadının cəmiyyətdə rolunda, müvafiq davranış növündə, "kişi" və "qadın" arasındakı mental və emosional xarakteristikalardakı fərqlər və nəhayət, həmin prosesin bilavasitə nəticəsi - Genderin sosial konstruktu həyata keçirilir. Azərbaycan cəmiyyətində Gender münasibətlərinin bəşəri təzahürləri "kişi" və "qadın" münasibətlərinin qloballaşma prosesi zəminində reallaşmasının reallıqlarındandır. Qadının sosioloji mahiyyətinin qabardılması Genderin əsas məsələsi kimi müasir Azərbaycan cəmiyyətində öz əksini tapmaqdadır. Bu gün Azərbaycan qadını cəmiyyətin, dövlət quruculuğunun ən yüksək səviyyələrində iştirak edir, qlobal-bəşəri, dövlət məsələlərinin həllinə cəlb olunur. Bu mədəni qloballaşmanın təzahürlərindəndir.

Göründüyü kimi, bu gün kulturologiyada ən mühüm prioritet kimi dəyərləndirilən mədəniyyət və qloballaşma öz nəzəri aspektləri ilə maraq doğurmaqla yanaşı, həm də müasir cəmiyyətin reallıqlarındandır.

***Maral MANAFOVA,***
***ADMİU-nun Mədəniyyətşünaslıq kafedrasının müdiri, pedaqoji elmlər namizədi, dosent***

## İstifadə olunmuş ədəbiyyat

1. М.Делягин. Мировой кризис: общая теория глобализации. Москва, 2003 г.
2. А.А.Зиновьев. Идеологическая глобализация. Москва, 2002г.
3. Шепин С.Ю. Проблемы преодоления слаборазвитости. Взгляд с Запада. М.-2002 г.
4. Мальковская М.А. Социум в условиях глобализации.
5. Зорин И.В. Глобализация культуры. М.2003 г.
6. Лапицкий М.И. Глобализация - культура. М.,2002 г.